


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 40 (23.927)

*27 fevral 2022-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər. Yürüş iştirakçıları Xətai rayonunda ucaldılan Xocalı abidəsinin yerləşdiyi əraziyə gəliblər.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib. Birinci xanım Mehriban Əliyeva, Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev abidənin önünə gül dəstələri qoyublar.

Ümumxalq yürüşünün iştirakçıları abidənin önünə tər güllər düzüblər.




## Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Xocalı soyqırımının otuzuncu ildönümü haqqında” 2022-ci il 28 yanvar tarixli Sərəncamına əsasən ölkəmizin hər yerində Xocalı soyqırımının otuzuncu ildönümü münasibətilə tədbirlər keçirilir.

Fevralın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət etmiş, abidə önünə güllər qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.

Dövlət qurumlarının nümayəndələri, Türkiyə Respublikasının və İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulları da abidə önünə gül qoymuşlar.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin bölmələri, Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Azərbaycanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti tərəfindən soyqırımı törədilmişdir. Xocalıda qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmiş, ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə belə, aman verilməmiş, bir gecədə şəhər yer üzündən silinmişdir. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayət Ermənistanın ovaxtkı siyasi rəhbərliyi tərəfindən təşkil edilmişdi.

Xocalı soyqırımı zamanı mühasirədə olan şəhərə ağır hərbi texnika yeridilərək dinc əhali xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Yandırılan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, sakinlər yollarda, meşələrdə xüsusi amansızlıqla öldürülmüşdür. Bu cinayət beynəlxalq hüququn norma və prinsiplərinin və əsas insan hüquqlarının kobudcasına pozulmasıdır. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayət əməli nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilmişdir ki, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmuşdur. Eyni zamanda 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür.






Xocalı soyqırımına ilk qiymət ulu öndər Heydər Əliyev vermiş, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanatla Xocalı soyqırımını törədənləri ittiham etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi qiymət verilmişdir. Dahi şəxsiyyətin təşəbbüsü əsasında 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermiş, 26 fevral tarixi “Xocalı soyqırımı günü” elan olunmuş və soyqırımı haqqında həqiqətlər dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılmışdır. Ulu öndər Heydər Əliyev demişdir: ***“Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Soyqırımı faktlarının və erməni vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” beynəlxalq kampaniyası xüsusi rol oynamışdır. Hazırda 17 dövlətin qanunverici orqanı, Amerika Birləşmiş Ştatlarının 24 ştatı Xocalıda törədilmiş qətliamı pisləyən qətnamə və qərarlar qəbul etmişdir. İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanımışdır.

2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu düşmən üzərində qələbə çaldı, tarixi ədaləti bərpa etdi, Xocalı soyqırımı qurbanlarının, eləcə də torpaq uğrunda canını fəda edən bütün Vətən övladlarının qisası alındı, ərazi bütövlüyümüz təmin olundu. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***“Biz Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq”.***

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Xocalı faciəsinin ildönümü qeyd olunub



Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyində Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Əvvəlcə tədbir iştirakçıları Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin, həmçinin Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri açıq elan edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Azərbaycan tarixində xalqımıza qarşı törədilmiş qanlı hadisələrdən biri, amansızlığı və xüsusi qəddarlığı ilə seçilən şovinist, azərbaycanlıların, bütövlükdə, türk millətinin varlığına qənim kəsilmiş erməni-daşnak faşizmi tərəfindən xalqımıza qarşı törədilən Xocalı qətliamı barədə geniş danışıb.

Qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni barbarları – işğalçıları tərəfindən Xocalı şəhərində dəhşətli qətliam, bəşəri cinayət törədilmişdir. Həmin dövrdə yalnız Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ona görə də xalqımız məhz ikinci Xocalı faciəsini yaşamamaq üçün ümummilli lideri hakimiyyətə gətirdi. Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk təşəbbüs də məhz ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf etdi. Ümummilli lider ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu.

Çıxışda Xocalı soyqırımının dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində ölkədə və xaricdə keçirilən mühüm layihələrdən və görülən işlərdən danışılıb. Daimi Nümayəndəliyin rəhbəri vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin inamla həyata keçirdiyi daxili və xarici siyasət, erməni qəsbkarlığının ifşası istiqamətində uğurlu addımlar bəhrəsini verməkdədir. İlbəil daha da güclənən, qüdrətlənən, müdafiə potensialı artan Azərbaycanın Milli Ordusu artıq düşmənin çirkin niyyətləri qarşısında ən böyük və keçilməz maneəyə çevrilib. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başlanılan, 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə gerçəkləşdirərək hərb tarixinə qısa zamanda böyük nailiyyət kimi yenilik gətirdi. Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük bir qismi işğaldan azad olundu. Ümumilikdə, Qarabağ şəhidlərinin, eləcə də həm Xocalının, həm də xocalılıların qisası alındı.

Bildirilib ki, Xocalı faciəsi qurbanlarının əziz xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzlərində, qəsəbə və kəndlərində izdihamlı yürüşlərlə, anım abidələrinin ziyarət olunması ilə anılır. Hər il soyqırımı qurbanlarının əziz xatirəsinin ümumxalq səviyyəsində yad edilməsi onu göstərir ki, Xocalıda ermənilərin həyata keçirdiyi dəhşətli qətliam – soyqırımı xalqımızın yaddaşından heç vaxt silinməyəcək, gələcək nəsillər Xocalı soyqırımının dəhşətlərini heç zaman unutmayacaq.

Tədbir digər çıxışlar və Bakı Slavyan Universitetinin Daimi Nümayəndəlikdə istehsalat təcrübəsi keçən tələbələrinin ifasında Xocalı soyqırımına həsr edilmiş ədəbi-bədii kompozisiya ilə davam edib.

**AZƏRTAC**

## Təbrizdə Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar tədbir




Fevralın 23-də Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar tədbir keçirilmişdir.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək ermənilər tərəfindən Xocalıda törədilən soyqırımından danışmış, bu qətliamın törədilməsinin səbəb və nəticələrinə diqqət çəkmiş, ötən dövr ərzində Azərbaycanın beynəlxalq arenada apardığı "Xocalıya ədalət!" kampaniyası haqqında məlumat vermiş, cinayətkarların mütləq surətdə beynəlxalq hüquq qarşısında cəzalandırılmasının vacibliyini qeyd etmişdir.

Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu Çətin Tanər çıxış edərək Xocalı soyqırımının hüquqi aspektlərinə toxunmuş, Xocalı faciəsini törədənlərin hələ də beynəlxalq məhkəmələrdə cavab verməməsindən təəssüfləndiyini bildirmiş, Türkiyə Respublikasının hər zaman Azərbaycanın yanında olduğunu vurğulamışdır.

Çıxışlardan sonra Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş etdirilmiş və sərgi ilə tanışlıq olmuşdur.

Tədbirdə İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri Əkbər İsazadə, Türkiyənin Təbrizdəki Baş konsulu Çətin Tanər və Baş Konsulluğun əməkdaşları, Şərqi Azərbaycan Vilayəti Mətbuat Evinin rəhbəri Murtəza Şəfii və Təbrizdə yaşayan Azərbaycan vətəndaşları iştirak etmişlər.

**"Şərq qapısı"**

# İnteraktiv dərs keçilib



*Muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında interaktiv dərs keçilib.*

Ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş Vətən övladlarının xatirəsini yad etmək, amansızlığına və qəddarlığına görə bəşər tarixinə qanlı iz salmış Xocalı soyqırımı haqqında məktəblilərə məlumat vermək, şagirdlərdə düşmənə qarşı barışmazlıq hissi, Vətənə, torpağa sədaqət və məhəbbət duyğularını gücləndirmək məqsədilə keçilən dərsdə qeyd olunub ki, Xocalı soyqırımını törətməkdə ermənilərin əsas məqsədi xalqımızın mübarizə əzmini qırmaq və əhəmiyyətli geostrateji mövqeyə sahib olmaq idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalıda misli görünməmiş soyqırımı törətdilər. Qarabağın ən iri yaşayış məskəni 366-cı motoatıcı alayın, eləcə də xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçdi.

Xocalı faciəsinin səbəbləri və ağır itkilər haqqında məlumat verilən dərsdə vurğulanıb ki, əvvəldən planlaşdırılmış əməliyyatın qəddarlığına baxmayaraq, Xocalı sakinləri son anadək özlərini əsl qəhrəman kimi aparmış, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməmişlər.

Bildirilib ki, həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Dərsdə ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsi, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün görülən tədbirlərdən də ətraflı bəhs edilib.

Qeyd olunub ki, Azərbaycanın müzəffər Ordusu 44 gün ərzində böyük Qələbə qazandı, düşmən torpaqlarımızdan qovuldu, Qarabağ, xüsusən də milli mədəniyyətimizin beşiyi olan Şuşa işğaldan azad edildi. Eyni zamanda qələbəyə gedən yolda Xocalının da qisası alındı. Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

İnteraktiv dərs Naxçıvan Muxtar Respublikasının 200-dən çox ümumtəhsil məktəbində izlənilib.



*Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb*



*Şərur rayon Çərçiboğan kənd tam orta məktəbi*

Muxtar respublikanın bütün ümumtəhsil məktəblərində ilk dərs saatı da Xocalı soyqırımına həsr edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Qisası alınmış Xocalı faciəsi qurbanlarının xatirəsi qürurla anılıb

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə çıxış edənlər bildiriblər ki, Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bütün beynəlxalq hüquq normalarını pozmuş Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıya ağır hərbi texnika yeridilib və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutulub. Bəşəriyyətə qarşı törədilmiş bu dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib.



Xocalı soyqırımına ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə hüquqi-siyasi qiymət verilib. Bu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, dünyanın bir çox ölkə və şəhərlərində həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində XX əsrin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsi dünyada soyqırımı aktı kimi tanınıb və Xocalı soyqırımı qurbanlarının qisası Azərbaycanın rəşadətli Ordusu tərəfindən döyüş meydanında alınıb. Xocalı soyqırımının 30-cu ildönümünü Xocalının qisasının alındığı gün kimi yad edirik.

Tədbirdə hərbi hissələrin bədii özfəaliyyət kollektivləri və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri ədəbi-bədii kompozisiya təqdim ediblər. Xocalı soyqırımından və ordumuzun qüdrətindən bəhs edən videoçarxlar göstərilib.

Naxçıvan Dövlət Universitetində Xocalı faciəsinin 30-cu ildönümü ilə bağlı keçirilən tədbirdən öncə universitetin İncəsənət fakültəsində soyqırımı həqiqətlərini özündə əks etdirən sərgiyə baxış olub. Sərgidə fakültənin müəllim və tələbələrinin yağlı və sulu boya ilə çəkilmiş rəsmləri nümayiş edilib. Həmçinin sərgidə zəfərimizi əks etdirən mübariz əhval-ruhiyyəli əl işləri də yer alıb. Tədbirdə Xocalı soyqırımında, o cümlədən Vətən uğrunda şəhid olan oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Universitetin rektoru, dosent Elbrus İsayev Xocalı soyqırımının, bütövlükdə, insanlığa, bəşəriyyətə yönələn ən ağır cinayətlərdən biri olmasından danışıb. Qeyd edilib ki, artıq Xocalı faciəsini məyusluqla yad etmirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanaraq torpaqlarımızı geri aldı. Böyük Zəfərimizin nəticəsində Xocalı soyqırımı qurbanlarının, eləcə də digər şəhidlərimizin qanı yerdə qalmadı.

Tədbir Tələbə Teatr Studiyasının hazırladığı ədəbi-bədii kompozisiya ilə davam edib. Tələbələr Xocalı faciəsinə dair şeirlər səsləndirib, səhnəcik nümayiş etdiriblər. Sonda Universitet televiziyasının Xocalı qurbanlarının əziz xatirəsinə həsr etdiyi videoçarx nümayiş olunub.

## Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib



Görkəmli dövlət xadimi Heydər Əliyevin 1997-ci il fevral ayının 25-də imzaladığı Sərəncamla hər il fevralın 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla anılaraq bir dəqiqəlik sükutla yad edilir.

Naxçıvan Muxtar Respublikasında da hər il olduğu kimi, dünən Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb. Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılıb.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikamızın rayonlarında Xocalı soyqırımı anılmışdır

## Şərur rayonu

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda yaşanan dəhşətli faciədən otuz il ötür. Otuz ildir ki, dünyanın hər tərəfində sülhsevər insanlar, əmin-amanlığın, rahat həyatın tərəfdarı olan hər bir kəs insanlığa qarşı törədilən bu vəhşi hərəkətin beynəlxalq səviyyədə həqiqi qiymətini almasını tələb edir.

Erməni faşizminin mənfur xislətini bir daha bəyan edən bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı terror siyasətinin təzahürü olmaqla, bütövlükdə, bəşəriyyət və insanlığa qarşı törədilən qəddar cinayətdir.

Ümummilli liderimiz demişdir: ***"Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qanlı səhifə kimi qalacaqdır".***

Otuz il bundan əvvəl dünya da gördü ki, XX əsrin faciəsi olan Xocalı soyqırımı təcavüzkar və cinayətkar erməni siyasətinin nəticəsidir. Baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.



Məhz dahi şəxsiyyətin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" Qərar və dünya azərbaycanlılarına müraciət qəbul etdi.

Hər il olduğu kimi, bu il də fevralın 26-sı Xocalı şəhidlərinin anım günü kimi qeyd edilib. Bu münasibətlə Şərur şəhərindəki "Bahar" kinoteatrının foyesində ümumrayon tədbiri keçirilib. Tədbir iştirakçıları Xocalı faciəsini əks etdirən simvolik pannonun önünə tər qərənfillər düzüblər.

Bu gün qürur hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dərin və uğurlu siyasəti sayəsində haqq, ədalət bərpa olundu. 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımız Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 gün ərzində erməni vandallarından geri alındı. Bununla da Azərbaycan Ordusu regionda ən güclü hərbi qüvvə olduğunu bir daha nümayiş etdirdi.

## Babək rayonu

Fevralın 26-da Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivləri Xocalı soyqırımı qurbanlarının xatirəsini dərin ehtiramla yad ediblər.

Xocalı soyqırımının otuzuncu ildönümü haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci il yanvarın 28-də Sərəncam imzalayıb. Sərəncamda deyilir: *"Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın ozamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır".*

Xocalı soyqırımı bədnam qonşularımızın ölkəmizə qarşı başlatdıqları müharibənin ən dəhşətli səhifəsi, insanlığa qarşı ən böyük cinayətdir. Xocalı soyqırımı ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır.

Müharibə itkilər, qurbanlar tələb edir. Lakin erməni işğalçılarının elan olunmamış və ədalətsiz müharibəsinin davamı olan Xocalı qətliamının qurbanları yalnız hərbçilər deyil, dinc sakinlər – ahıllar, qadınlar, uşaqlar, döyüş meydanından qaçmağa gücü çatmayan əliyalın soydaşlarımız idi.




2020-ci il sentyabrın 27-də Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında başlayan Vətən müharibəsində rəşadətli Ordumuz düşməndən Xocalı qurbanlarının qisasını aldı. Otuz ilə yaxın müddətdə erməni vandallarının işğalı altında qalan tarixi torpaqlarımız azadlığa qovuşdu, ərazi bütövlüyümüz bərpa olundu. Bununla da illərdir ki, erməni daşnak qüvvələrinin soydaşlarımıza qarşı törətdikləri faciələrin, qanlı hadisələrin intiqamı alındı. İndi Azərbaycan Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Böyük Qayıdış prosesini uğurla reallaşdırır. Artıq işğaldan azad olunmuş torpaqlarımızda quruculuq işləri başlayıb, doğma torpaqlarımıza səfərlər təşkil olunur, Qarabağ doğmalarının nəfəsi ilə yenidən dirçəlir. Erməni vəhşilərinin yandırıb kül etdiyi, daşı daş üstündə qoymadığı şəhərləri, kəndləri yenidən qurur, işğaldan azad olunmuş torpaqlarımızı müasir layihələr əsasında inşa edirik. Bütün bunlar həm də Azərbaycanın güclü iqtisadi potensiala malik olduğunun göstəricisidir.

## Ordubad rayonu

*Fevralın 26-da Ordubad şəhərindəki Mədəniyyət Sarayında Xocalı Soyqırımı Günü münasibətilə tədbir keçirilib. Rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri Mədəniyyət Sarayının foyesində Xocalı soyqırımı qurbanlarının xatirəsinə çəkilmiş portretin önünə tər qərənfillər düzüblər.*



Azərbaycan xalqının deyil, bəşəriyyətin sağalmaz yarasına çevrilən Xocalı soyqırımı əsrlər ötsə, dövr dəyişsə də unudulmur. Bu soyqırımının nəticələri ilbəil daha dərindən təhlil edilir, araşdırılır, öyrənilir, dünyada geniş şəkildə təbliğ olunur, silsilə tədbirlər keçirilir, faciə qurbanlarının xatirəsi daim əziz tutulur. Bu il həmin faciənin törədilməsindən artıq 30 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları tərəfindən yerləyeksan edilən Xocalı qan yaddaşımıza qanlı hərflərlə yazıldı. Bu amansız və dəhşətli cinayətdə Xocalı şəhərinin sakinləri son anadək qəhrəmancasına mübarizə aparıb, son nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməyiblər. Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı, vəhşiliyin görünməmiş bir təzahürü kimi dəyərləndirmişdir. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat verib, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb edib. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib. 2020-ci ildə 44 gün davam edən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusunun parlaq qələbəsi ilə Xocalı soyqırımının qisası da alınmış oldu.

Xalqımız Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla anır.

## Culfa rayonu



*Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir.*

Faciənin 30-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 28 yanvar tarixli Sərəncamı Xocalı soyqırımı haqqında həqiqətlərin dünyada təbliğ olunmasında, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır.

Bu faciənin 30-cu ildönümü ilə əlaqədar fevralın 26-da Culfa Rayon İcra Hakimiyyətinin foyesində keçirilən anım tədbirində idarə, müəssisə və təşkilat rəhbərləri faciə qurbanlarının xatirəsinə hazırlanmış pannonun önünə tər qərənfillər düzmüş, dəhşətli gecədə şəhid olanların əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə sayəsində doğma Azərbaycanımızın ərazi bütövlüyü təmin olundu. Əlləri Xocalı faciəsi qurbanlarının qanına bulaşmış erməni vandallarının bir çoxu Xocalı qisası ilə böyüyən, düşmənə nifrət hissi ilə yaşayan Vətənimizin mərd oğulları tərəfindən məhv edildi. Vətən müharibəsi həqiqətlərin, münaqişənin əsl mahiyyətinin, ən əsası, ermənilərin və onlara havadarlıq edənlərin bu günədək yeritdikləri siyasətin məqsəd və məramını, beynəlxalq hüququn maraqlarının arxasında əridiyini bir daha açıqladı.

44 gün həqiqət anı kimi bütün qaranlıq məqamlara işıq saldı. İşğaldan azad edilmiş ərazilərimizi ziyarət edən, erməni silahlı qüvvələrinin törətdikləri cinayətlərdən dəhşətə gələn beynəlxalq təşkilatların nümayəndələri və digər xarici qonaqlar bir daha Qarabağ torpaqlarında heç yerdə görmədikləri faciənin, vandalizmin şahidi olduqlarını etiraf etdilər.

## Kəngərli rayonu



Fevralın 26-da Kəngərli rayonunda da Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasim iştirakçıları Qıvraq qəsəbəsindəki Mədəniyyət Sarayının foyesində təşkil olunmuş Xocalı faciəsi qurbanlarının xatirəsini əks etdirən pannonun önünə çiçəklər düzüblər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilmiş dəhşətli faciədən 30 il ötür. Erməni faşizminin mənfur xislətini ifşa edən bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı terror siyasətinin təzahürü olmaqla, bütövlükdə, bəşəriyyət və insanlıq əleyhinə qarşı törədilən qəddar cinayətdir.

Bu gün ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin Xocalı soyqırımının beynəlxalq aləmdə soyqırım aktı kimi tanınması istiqamətində apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində artıq bütün dünya erməni faşizminin iç üzü ilə yaxından tanış olur. Hər il Xocalı soyqırımı ərəfəsində bu faciənin ildönümü dünyanın əksər ölkələrində geniş şəkildə qeyd olunur.

Miqyasına və qəddarlığına görə bəşər tarixində bənzəri olmayan bu soyqırımı aktını törətməkdə azğınlaşmış erməni silahlı birləşmələrinə ən layiqli cavabı 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu verdi. Xocalı soyqırımı qurbanlarının, eləcə də digər şəhidlərimizin qisası erməni ordusunun darmadağın edilməsi ilə alındı, eyni zamanda ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

Xalqımız əmindir ki, aparılan düzgün və məqsədyönlü siyasət nəticəsində Azərbaycanın haqq səsi tezliklə dünyanın digər ölkələrində də eşidiləcək, ermənilərin mənfur əməlləri beynəlxalq səviyyədə qınaq obyektinə çevriləcək, Xocalı soyqırımının təşkilatçıları haqlı cəzalarına çatacaqlar.

## Şahbuz rayonu

*Xocalı faciəsi iki əsrdən çoxdur ki, ermənilərin xalqımıza qarşı törətdiyi etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifəsidir. Təkcə xalqımıza qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş dəhşətli faciənin baş verməsinin 30-cu ildönümü ilə əlaqədar Şahbuz şəhərindəki Mədəniyyət Sarayında idarə, müəssisə və təşkilatların nümayəndələri Xocalı şəhidlərinin əziz xatirəsinə həsr olunan sərginin önünə tər qərənfillər düzüblər.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımı barədə deyib: ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Soyqırımı faktlarının və erməni vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası xüsusi rol oynamışdır.

Ölkəmizə qarşı təcavüzün qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək, uzun müddət davam edən işğala son qoymaq məqsədilə 2020-ci il 27 sentyabr tarixində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində 30 il işğal altında olan torpaqlarımız azad edildi, Tarixi Qələbə qazanıldı.

XX əsrin sonlarında dünya dövlətlərinin gözü qarşısında baş verən Xocalı soyqırımı heç vaxt unudulmayacaq, bu faciədə həlak olanların xatirəsi xalqımız tərəfindən yad ediləcək.

## Sədərək rayonu

*Xocalı soyqırımının törədildiyi vaxtdan 30 il keçir. Xocalı faciəsi bütün beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan dövlətinin Qarabağı özünə birləşdirmək üçün ən ağır cinayət və vəhşiliyə hazır olduğunu bir daha göstərdi.*

Xalqımızın dahi oğlu Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu faciəyə hüquqi-siyasi qiymət verilib. Bu gün Azərbaycan dövləti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı faciəsinin soyqırımı kimi tanınması üçün məqsədyönlü fəaliyyət göstərir.

Azərbaycanın parlaq qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi Müzəffər Ordumuzun gücünü bütün dünyaya göstərdi. Ordumuz 27 sentyabr 2020-ci ildə torpaqlarımızın azad edilməsi uğrunda başladığı əks-hücumda 4 ildə işğal olunmuş 5 şəhər, 4 qəsəbəni və 286 kəndi



azad etdi. Məğlub Ermənistan 9 noyabrda təslim aktını imzalamaq məcburiyyətində qaldı. Kəlbəcər, Ağdam və Laçın rayonları heç bir itki vermədən geri alındı.

Bu gün biz müzəffər bir xalqın övladları olaraq başımızı dik tuturuq. Əcdadlarımızın bizə əmanət etdiyi torpaqları mənfur düşmənin qanlı caynaqlarından alıb Vətənimizə qovuşdurduq. Bütün bunlar günlərlə yuxusuz qalıb siyasət masasında səbir və iradə göstərən xalqımızın dahi liderinin davamçısının və cənab Vətənə sipər edən igid övladlarımızın sayəsində oldu. Bu gün 30 il əvvəl amansızlıqla qətlə yetirilən hər bir Xocalı sakininin ruhu şaddır.

**Xəbərlər şöbəsi**

## Azərbaycan gəncliyinin milli ideoloji inkişafı Naxçıvan nümunəsində

***Hər bir xalqın taleyində müsbət mənada iz buraxan, əbədiləşən nümayəndələri olur. Azərbaycanlılar, bu mənada, dünyanın ən şanslı xalqlarındandır, – desək, yanılmarıq. Çünki bütün sahələrdə adını tarixə qızıl hərflərlə yazdırmış elm və ictimai-siyasi xadimlərimiz, musiqiçilərimiz, qəhrəmanlarımız olmuşdur və müasir dövrümüzdə də yetişməkdədirlər.***



Xalqımızın mentalitetində önəmli yeri olan Vətən və xalq sevgisi, mərdlik, dövlətçiliyimizə sədaqət milli ideologiyamızın özəyini təşkil edir. Müasir dövrümüzdə də gənclərimiz bu yöndə tərbiyə edilir; istər regional, istərsə də beynəlxalq səviyyədə icra olunan islahat və layihələr gənclərimizin inkişafına, yüksək intellektli, savadlı, dünyagörüşlü, eyni zamanda Vətəni, xalqı üçün faydalı vətəndaşlar kimi yetişdirilməsinə hesablanmışdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən sədaqətlə davam etdirilir və ölkə başçısının gənclər siyasəti sahəsindəki uğurlu fəaliyyəti məhz ulu öndərin siyasətinə və siyasi məktəbinə sadiqliyinin əyani təzahürüdür.

***“Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir”***, – deyən Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev hər nitqində, hər məqamda məqsədyönlü gənclər siyasətinin əhəmiyyəti və vacibliyini vurğulayır, gənclərin ölkəmizin rifahı, inkişafı və gələcək qüdrəti üçün mühüm rol oynadığını diqqətə çatdırır.

Elm və texnologiyanın sürətli inkişafı, dünyada gedən siyasi proseslər və qeyri-neft sektorunun inkişafı üçün əhəmiyyətli sayılan insan kapitalının inkişafı zərurəti Azərbaycanda da gənclər siyasətinin vacibliyini gündəmə gətirmişdir. Məhz bu səbəbdəndir ki, 2007-ci ilin “Gənclər ili” elan olunması, ölkə Prezidentinin 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın qəbul edilməsi minlərlə gəncin dünyanın nüfuzlu universitetlərində təhsil almaları üçün şərait yaratmışdır. Sonrakı mərhələdə yüksək intellektli, fiziki-mənəvi cəhətdən sağlam gənclərin yetişdirilməsi və onların müxtəlif sahələrdə fəaliyyətini təmin etmək məqsədilə ölkə başçısı tərəfindən 2015-ci il yanvarın 26-da imzalanmış “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Sərəncam, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nın təsdiq olunmasına dair Sərəncam məhz bu siyasətin davam etdirilməsinə xidmət etmiş, gənclərimizin separatizm, beynəlxalq terrorizm və dini ekstremizmin qurbanları olmasının qarşısının alınmasına hesablanmış və fiziki-ideoloji sağlam, yüksək intellektli gənclərin ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında fəal iştirakını təmin etməklə nəticələnmişdir.

Vətən müharibəsi dövründə Azərbaycan gənclərinin ölkə rəhbəri ətrafında sıx birləşməsi, işğal altındakı torpaqlarımızın azad olunmasında göstərdikləri şücaəti təsdiq etdi ki, həqiqətən də, Azərbaycanda ölkə başçısının gənclər siyasəti uğurludur, öz nəticəsini verir və verəcəkdir!

Bu gün ideoloji, siyasi, fiziki, mənəvi baxımdan sağlam gənclər yetişdirmək və tərbiyə etmək məhz dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahədə atılan addımlar, gənclərlə keçirilən görüşlər, dövlət idarəçiliyində gənc və potensiallı kadrların üstünlük verilməsi, hər il daha da təkmilləşdirilən dövlət gənclər siyasətinin işlənib hazırlanması təkcə paytaxtımız Bakı şəhərində deyil, müstəqil ölkəmizin bütün regionlarında sistemli və məqsədyönlü şəkildə icra olunur.



Naxçıvan Muxtar Respublikasında da gənclər siyasətinə xüsusi önəm verilir və bu sahədə qəbul edilən qərarların icrası layiqincə həyata keçirilir. Muxtar respublikada elm, təhsil, mədəniyyət, incəsənət, bir sözlə, bütün sahələrdə gənclərin inkişafı, sağlam ruhda tərbiyə olunması və onlarda ruh yüksəkliyinin yaradılması üçün mütəmadi tədbirlər planı hazırlanır və icra olunur. Heydər Əliyev siyasi kursuna sədaqət nümunəsi olan qədim diyarımızda dövlət siyasəti, elm, təhsil, səhiyyə, iqtisadiyyat və başqa fəaliyyət sahələrində tətbiq edilən dövlət strategiyası, ümumilikdə, vətəndaşların, xüsusilə gənc nəslin rifahı və həyat şəraitinin yaxşılaşdırılmasına hesablanmışdır.



II Qarabağ müharibəsi dövründə bütün Azərbaycan vətəndaşları kimi, naxçıvanlı gənclərimiz də Vətənə sədaqət borcunu yerinə yetirərək ana torpağın harayına çatmış, canlarını düşmən gülləsinə sipər etməklə şəhidlik zirvəsinə ucalmış, qazi olmuşlar. Məhz şəhidlərimiz son mənzilə yola salınmaq üçün Naxçıvana gətirilərkən şəxsən Ali Məclisin Sədri cənab Vasif Talıbovun onları qarşılaması, ailələri ilə görüşərək onlara başsağlığı verməsi, maddi və mənəvi dövlət dəstəyinin göstərilməsi məhz xalq-rəhbər birliyinin bariz nümunəsi və muxtar respublikada vətəndaşlara göstərilən dövlət qayğısının təzahürüdür. Sonrakı mərhələdə şəhid və qazi ailələrinin evlə və ehtiyaclarına uyğun olaraq digər maddi vəsaitlərlə təmin olunması vətəndaşlara – gənclərə göstərilən qayğının əyani sübutudur. Məhz rəhbər qayğısı və rəhbər nümunəsi gənclərdə gələcəyə inamı artırır, onlar üçün üzərlərinə düşən məsuliyyəti dərk edərək daha böyük uğurlara, nailiyyətlərə aparan yolda ilham mənbəyi olur.

Çərçiboğan kənd tam orta məktəbinin açılışı zamanı Ali Məclisin Sədri demişdir: ***“Bu gün yetişən gənclik XXI əsrdə yaşayır. XXI əsr isə yeni texnologiyalar əsridir. Məktəbdə kompüter sinfi, STEAM otağı, laboratoriyalar, kitabxana və başqa müasir tədris avadanlıqları istifadəyə verilir ki, gənclərimiz özlərini XXI əsrin gəncləri kimi hazırlaya bilsinlər. Müəllimlərin vəzifəsi isə Vətəninə, xalqına sədaqətli, vətənpərvər gənclər yetişdirməkdən ibarətdir. Bütün bunlar həyata keçirildiyi zaman ölkəmizin müstəqilliyi də uzunömürlü olacaq, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz yerini qoruyub saxlayacaq”.***

Ali Məclis Sədrinin hər il imzaladığı müxtəlif məzmunlu sərəncamlar – ali təhsil müəssisələrində ixtisasların hamiliyə verilməsi, yeni məktəb binalarının tikilməsi və əsaslı təmir olunaraq müasir texniki avadanlıqlarla təmin edilməsi, Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının, yeni tədris korpuslarının və Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması, müxtəlif sahələrdə öz istedadları ilə seçilən gənclərə fəxri adların, təqaüdlərin verilməsi, onların adlarının Naxçıvan Muxtar Respublikasının “Qırmızı Kitabı”na salınması, dövlət idarəçiliyində gənc kadrlara üstünlük verilməsi və bu kimi bir sıra tədbirlər gənclərdə ruh yüksəkliyi yaradır, onların düzgün istiqamətdə tərbiyəsi və inkişafı üçün stimul vermiş olur.

Bu sahədə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının da xüsusi rolu vardır. Partiya sıralarına günbəgün gənc üzvlərin qoşulması, partiya nəzdində Yeni Azərbaycan Partiyası Muxtar Respublika Gənclər Birliyinin yaradılması və birliyin aktiv fəaliyyətinin təmin edilməsi, müxtəlif fəaliyyət sahələrində öz istedadı ilə seçilən gənclərin mükafatlandırılması, mütəmadi şəkildə regionlarda birlik üzvləri ilə gənclərin görüşlərinin təşkil olunması onlarda ruh yüksəkliyi yaradır, istedadlı və potensiallı gənclərin üzə çıxarılması istiqamətində çox böyük əhəmiyyət kəsb edir.

Fəaliyyətini əsaslı şəkildə yenidən qurmuş və təsdiq olunmuş Tədbirlər planına uyğun olaraq fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi dövlət gənclər siyasətinə sadiq qalaraq bu istiqamətdə öz töhfəsini vermək üçün var gücü ilə çalışır. Birliyin nəzdində fəaliyyət göstərəcək “Könüllülük Proqramı” da məhz sadaladığımız məqsədlərə xidmət edəcək və gənclərin asudə vaxtlarının səmərəli təşkili, milli ideoloji və siyasi cəhətdən sağlam yetişmələri üçün mühüm rol oynayacaqdır.

Fiziki sağlamlıq məhz ideoloji və psixoloji sağlamlıqdan asılıdır. Çünki vicdan paklığı, əqidə təmizliyi, şüurlu inkişaf gənclərimizin fiziki cəhətdən sağlam olmaqlarına bilavasitə təsir edir. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların düzgün istiqamətləndirilməsi, cəmiyyətdə sayılıb-seçilən və nümunə ola biləcək şəxslərin bu sahədə müsbət nümunə olması, mütəmadi keçirilən görüşlər, onların diqqət və qayğını əyani şəkildə hiss etməsi gənclərin pis vərdişlərdən uzaq olmasına, ideoloji və fiziki baxımdan sağlam gəncliyin yetişdirilməsinə xidmət edir.

Muxtar respublikada fəaliyyət göstərən Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və digər dövlət qurumlarının, Həmkarlar İttifaqları Şurası, Naxçıvan Dövlət Universitetinin dəstəyi və Tələbə-Gənclər təşkilatlarının birgə fəaliyyəti sayəsində ali və orta ixtisas təhsili müəssisələrinin və könüllü gənclərin cəlb edilməsi ilə müxtəlif tədbirlər icra olunur. Qış məktəblərinin təşkili, gənclərlə bilavasitə ünsiyyət, onları dinləmək, çətinlik və qayğıları ilə maraqlanmaq və bu istiqamətdə həll yollarında köməklik göstərmək gələcək nəslin nümayəndələrində ruh yüksəkliyi yaratmaqla yanaşı, həm də onların bu motivasiyadan ilhamlanaraq daha aktiv fəaliyyətinə təkan vermiş olur.

İstənilən cəmiyyətin inkişafında mühüm rol oynayan müəllim və ziyalılar həmin cəmiyyətin zəka və inkişaf göstəricisi sayılır. Məhz buna görə də gənc nəsli milli ideoloji ruhda tərbiyə etmək, vətənpərvər, xalqını, Vətənini sevən və dəyərlərinə, dövlətçilik ənənələrinə sədaqətlə bağlı olan gənclər yetişdirmək ziyalı təbəqənin öhdəsinə düşür.

Ali Məclis Sədrinin də vurğuladığı kimi, dövlət gənclər siyasətinin icrasında ən önəmli məsuliyyət elm və təhsil müəssisələrinin və bilavasitə cəmiyyətimizin aparıcı qüvvəsi sayılan biz təhsil işçilərinin üzərinə düşür. Bu sahədə müəllimlərimiz üçün motivasiya isə yaradılan şərait və dövlət qayğısıdır. Pedaqoq və ziyalılarımız isə yaradılan şəraitə cavab olaraq üzərlərinə düşən məsuliyyəti dərk edir və vətənpərvər, fiziki-ideoloji sağlam gənc nəslin yetişdirilməsi üçün var qüvvələri ilə və vicdanla çalışırlar.

Biz müəllimlər dərk edirik ki, gənc nəslin təlim-tərbiyəsi zamanı milli-mənəvi dəyərlərin təbliği tariximizi, adət-ənənələrimizi, mədəni və mental dəyərlərimizi unutdurmamağa hesablanmalıdır. Bununla yanaşı, həm də çalışmalıyıq ki, gənclərimiz – gələcək nəsillər keçmişimizi, xalqımızın başına gətirilən faciələri unutmasınlar, keçmişdən nəticə çıxarsınlar ki, daha sağlam gələcək qura bilsinlər. Soy-kökümüzə, dilimizə, dinimizə bağlılıq etibarlı gələcək və sağlam gənc nəsil – müstəqil Azərbaycan deməkdir. Vətənpərvər, savadlı, dünyəvi biliklərə yiyələnən və eyni zamanda xalq-dövlət mənafeyini hər şeydən üstün tutan gənc nəsil yetişdirmək hər şeydən öndə gəlməlidir. Yalnız bu yolla, səmərəli fəaliyyətimizlə dövlət qayğısının və göstərilən yüksək etimadın nəticəsiz qalmadığını göstərə bilərik.

Muxtar respublikada yetişən və tərbiyə olunan gənc nəsil də, öz növbəsində, diqqət və qayğını dərk edir, daim yenilənən dünyadakı elmi, texnoloji, ictimai-siyasi proseslərdən faydalanaraq inkişaf edir. Hər il onlarla gəncimiz ölkəmizin hüdudlarından kənarda üçrəngli dövlət bayrağımızı zirvələrə qaldırır, istər idman, elm, təhsil, istərsə də siyasi arenalarda ən yüksək kürsülərdən haqq səsimizi dünyaya çatdırır, ölkə mənafeyini müdafiə edirlər. Lazım gəldikdə canını belə, əsirgəməyən, hər vasitə ilə xalqına, ölkəsinə xidmət edən nümunəvi gənclərimiz sonrakı nəsillərə örnək olmaqla yanaşı, həm də sübut edirlər ki, izlənən siyasi xətt, gələcəyə hesablanmış strateji yol düzgün seçilmişdir.

*Bütün bunlar onu göstərir ki, Vətənə, xalqa, dövlətçiliyə sədaqət qarşılıqlı inam və etimad sayəsində mümkün olur və Naxçıvan Muxtar Respublikası bu sahədə örnəkdir!*

**Aidə CƏLİLZADƏ**
***Naxçıvan Dövlət Universitetinin baş müəllimi,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı,***
***YAP Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin üzvü***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 182